

# Qusar müasir inkişaf yoluna qədəm qoyub

**“Son vaxtlar rayonumuzda çox iş görülüb, müsbət dəyişikliklər baş verib. Yeniliklər çoxdur. Hansını deyim? Şəhərimiz böyüyür, daha da gözəlləşir. Yeni-yeni çoxmərtəbəli binalar gözə dəyir. Mərkəzi meydan yenidən qurulub. Stadion əsaslı surətdə təmir olunur. Gördüyünüz kimi küçələr tərtəmiz, səliqəlidir. Şəhərdə yeni içməli su və kanalizasiya sistemi istifadəyə verilib. Qazımız, işığımız həmişə var. Yollar gündən-günə abadlaşır. Ən ucqar dağ kəndinə belə asfalt yol çəkilib. Nə qədər təzə məktəb binası tikilib. Rayonumuz ölkə rəhbərinin dediyi kimi beynəlxalq turizm məkanına çevrilib. “Şahdağ”a gələn turistlərin sayı-hesabı yoxdur. Adamlarımız üçün yüzlərlə iş yeri açılıb...”**

Bütün bunları şəhərin sakini, ağsaqqal-veteran Cavanşir müəllimin dilindən eşidirik. Onun söylədiklərinə biz də əlavələrimizi edirik. Bu gün Qusar özünəməxsus, müasir bir inkişaf yolu keçir. Rayonun iqtisadiyyatı gündən-günə güclənir. Dünənə qədər boş qalan bomboz çöllər bu gün ən müasir texnologiyalar əsasında salınmış super-intensiv tipli bağlara çevrilib. Rayonun aran zonasında sahibkarlar tərəfindən böyük istehsal müəssisələri yaradılıb. Qusarın kənd təsərrüfatına yeni-yeni sahələr əlavə olunub. Xaricdən gətirilmiş sortlar əsasında salınan badam bağları və digər ixrac yönümlü meyvələrin yetişdirilməsi sabahın güclü iqtisadiyyatından xəbər verir.

Şəhərdə görülən tikinti işləri də zövqlə və yüksək keyfiyyətlə aparılır. Onun təbii gözəllliyinə toxunmadan salınan yaşıllıq zolaqları, park və xiyabanlar göz oxşayır, könül açır. Şəhərin arxitekturasına xüsusi diqqət yetirilir. Hər bir tikili planlı şəkildə, düzgün, öz yerində salınır. Şəhərin mərkəzindən köhnə binadan köçürülən Mərkəzi xəstəxananın Qusarçayın sahilində, şəhərdən o qədər də aralı olmayan bir ərazidə - meşəlik massivdə salınması olduqca uğurlu addımdır. Xəstəxana binası yaşıllıqlar arasında salınmış böyük sanatoriyanı xatırladır. Təbii meşəlikdən salınmış Nəriman Nərimanov adına park nəinki şəhər sakinlərinin, gələn qonaqların da sevimli istirahət yeridir. Şəhərin yuxarı hissəsində çoxmərtəbəli binaların yaxınlığında salınmış uşaq-əyləncə şəhərciyinin analoqu yoxdur. Köhnə xəstəxananın binası əsaslı surətdə təmir olunub “Şəfa” istirahət mərkəzinə verilməsi də sosial quruculuq sahəsində uğurlu işlərdəndir.



Qusarda yenliklər nəinki hər il, hər ay baş verir. Hər dəfə bu şəhərə yolun düşəndə yeni bir tikilini, yeni bir mənzərəni görürsən. Bütün bunlar ölkə Prezidentinin qarşıya qoyduğu vəzifələri vaxtında və düzgün yerinə yetirməyə səy göstərən rayon rəhbərliyinin, onun işgüzar komandasının gərgin əməyinin, yüksək təşkilatçılıq qabiliyyətinin nəticəsidir.

Bu il də işlər öz ahəngi və sürətlə davam edir. Cari ildə iqtisadiyyatın demək olar ki, bütün sahələrində müsbət nəticələr əldə olunub. Xeyli tikinti, abadlıq, quruculuq işləri görülüb. Bütün bunlar barədə bu yaxınlarda keçirilən rayon icra hakimiyyəti başçısı yanında - geniş şura iclasında ətraflı danışlıb. 2018-ci ilin 9 ayında rayonun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat məruzəsində RİH başçısı Şair Alxasov demişdir: “Ölkəmizin sosial-iqtisadi həyatında olduğu kimi Qusarda da 2018-ci ilin 9 ayında iqtisadiyyatın əsasını təşkil edən kənd təsərrüfatı, sənaye, tikinti, eləcə də nəqliyyat, rabitə, ticarət və digər xidmət sahələrində müsbət nəticələr əldə olunub. İqtisadiyyatın aparıcı qolu olan sahibkarlığın inkişafına xüsusi diqqət yetirilmişdir. Ötən 9 ayda sahibkarlığın inkişafına dəstək məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. “Sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələləri”nə həsr olunmuş Yuxarı Zeyxur kəndində keçirilən işgüzar forum sahibkarlara dövlət dəstəyinin bir nümunəsidir. İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu ilə rayon icra hakimiyyətinin birgə təşkil etdiyi tədbirdə sahibkarlara güzəştli kreditlərin verilməsi mexanizmi izah edilmiş, rayonda həyata keçirilməsi məqsədəuyğun hesab olunan nümunəvi layihələr sahibkarlara təqdim olunmuşdur. 2018-ci ilin 9 ayında İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına Qusar rayonu üzrə həyata keçirilən 19 layihəyə 10694,0 min manat güzəştli kredit ayrılmışdır. Bu layihələrin həyata keçirilməsi 106 yeni daimi iş yerinin açılmasını təmin edəcəkdir. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq cari ildə də rayonda intensiv meyvə bağlarının salınması, iri həcmli Logistika mərkəzlərinin, istehsal, turizm, ictimai iaşə və xidmət obyektlərinin tikintisi davam etməkdədir.

Ötən 9 ay ərzində sahibkarlara əkin sahələrinin məhsuldarlığının artırılması məqsədilə mineral gübrələrə olan tələbatın ödənilməsi üçün güzəştli qiymətlərlə 1338,8 ton mineral gübrə verilmiş, sahibkarların kənd təsərrüfatı texnikasına olan tələbatının ödənilməsi üçün rayon Aqroservis müəssisəsinə cari ildə əlavə olaraq 2 ədəd traktor və 3 ədəd kənd təsərrüfatı aqreqatı verilmişdir. Hesabat dövründə 8884 nəfər kənd təsərrüfatı məhsullarının istehsalçısına əkin sahələrinin becərilməsində istifadə edilən yanacaq və motor yağlarına, habelə buğda əkilən sahələrə görə dövlət büdcəsinin vəsaiti hesabına əkilmiş 34309 hektar sahəyə görə 2 milyon 441,1 min manat subsidiya ödənilmişdir.

Əkin sahələrinin suvarma suyuna olan tələbatın vaxtında ödənilməsi məqsədilə beton örtüklü kanalların 3 kilometrlik hissəsində cari təmir işləri görülmüş, arx və kanallar 441 kubmetr lil və çöküntülərdən, 1400 kvadratmetr isə kol-kosdan təmizlənmiş, Samurçay və Qusarçay çaylarında 567 min kubmetr çay məcralarının tənzimlənməsi işləri görülmüşdür.



Cari ildə suvarma və içməli su probleminin həlli məqsədi ilə daha 5 kənddə 5 ədəd artezian quyusunun qazılması nəzərdə tutulur ki, bunlardan Quxuroba və Həsənqala kəndlərində qazıntı işləri yekunlaşmaq üzrədir.

Həyata keçirilmiş tədbirlər və kənd əməkçiləri tərəfindən çəkilmiş zəhmətin bəhrəsi olaraq sahələrdə bol məhsul yetişdirilmişdir. Artıq cari ilin məhsulunun yığılması başa çatır. 01 oktyabr 2018-ci tarixinə olan məlumata əsasən 17515 hektar buğda və 6500 hektar arpa sahəsindən, 38209,3 ton buğda, 14242,5 ton arpa, 25 hektar sahədən 52,5 ton vələmir və 402 hektar sahədən digər paxlalılar üzrə 492,2 ton məhsul yığılmışdır. Həmçinin, həmin tarixə rayonda 28938 ton kartof, 19441 ton tərəvəz məhsulları, 377 ton dən üçün qarğıdalı və 19177,7 ton meyvə yığılmışdır. Eləcə də, 9 ayda rayonda 3862,0 ton ət, 22550,6 ton süd və 7 milyon 967 min ədəd yumurta, 180,6 ton yun istehsal olunmuşdur. Oktyabr ayının 1-dək rayonda gələn ilin məhsulu üçün 13033 hektar şum sürülmüş, 1065 hektar sahədə səpin aparılmışdır.

Hesabat dövründə rayonda 171057,0 min manat dəyərində ümumdaxili məhsul istehsal olunmuşdur ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Həmçinin bu dövrdə əvvəlki ilin eyni dövrü ilə müqayisədə sənaye məhsulunun (işlərin, xidmətlərin) ümumi həcmi 9,5 faiz, kənd təsərrüfatında ümumi məhsul istehsalı 7,2 faiz, nəqliyyat sektorunda əldə olunan gəlirlər 4,9 faiz poçt və rabitə xidmətlərinin həcmi 9,7 faiz, pərakəndə əmtəə dövriyyəsi 3,8 faiz, əhaliyə göstərilən pullu xidmətlər 3,8 faiz artmış, 795 yeni iş yeri açılmış, 18 hüquqi və 322 fiziki şəxs sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün vergi orqanlarında qeydiyyatdan keçmişdir.



Rayonun yerli gəlirlər proqnozu 127,1 faiz icra olunmuşdur. Daxil olmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 941,8 min manat və ya 18,06 faiz çox olmuşdur.

Rayon əhalisinin məişət problemlərinin həlli və müasir infrastrukturun yaradılması sahəsində işlər davam etdirilmişdir. İlin 9 ayı ərzində əhalinin təbii qazla təminatın yaxşılaşdırılması məqsədilə 313 ədəd məişət qaz sayğacı yeni sayğaclarla, Qusar şəhərində və kəndlərdə korroziyaya uğramış müxtəlif diametrli 4128 metr qaz kəməri yeni borularla əvəz edilmiş, şəhərin bəzi küçələrində, Çiləgir və Urva kəndlərində 2787,5 metr qaz xətti korroziyaya qarşı boya ilə rənglənmişdir.

Azərbaycan Respublikası Prezidentinin 5 mart 2018-ci il tarixli sərəncamına uyğun olaraq cari ildə rayonun Piral və Cibir kəndlərinin qazlaşdırılmasına başlanılmış, magistral qaz xətlərinin çəkilməsi başa çatdırılmış, hazırda hər iki kənddə kənddaxili qaz xətlərinin çəkilməsi və sayğacların quraşdırılması işləri davam etdirilir. Yaxın vaxtlarda hər iki kəndə təbii qazın verilməsi nəzərdə tutulur. Rayona verilən təbii qazın dəyəri ümumilikdə 115,8 faiz, o cümlədən əhali abonentləri üzrə 121,2 faiz, qeyri-əhali abonentləri üzrə 109,1 faiz ödənilmişdir. Ötən ilin eyni dövrü ilə müqayisədə ödənişdə ümumilikdə 18,5 faiz, o cümlədən əhali abonentləri üzrə 9,7 faiz, qeyri-əhali abonentləri üzrə 24,4 faiz artım olmuşdur.

Rayonun elektrik enerjisi təchizatı şəbəkəsində qəzalı vəziyyətdə olan dayaqların təmiri və yeniləri ilə əvəz edilməsi, əlavə transformator yarımstansiyaların quraşdırılması sahəsində də müəyyən işlər görülmüşdür. Ötən 9 ay ərzində Hil kəndində yeni 35/10 kv-luq yarımstansiyasının tikintisinə başlanılmış, bu məqsədlə 7,8 kilometr uzunluğunda 35 kv-luq hava elektrik verilişi xəttinin 77 ədəd aralıq, 2 ədəd anker dayağı quraşdırılmış, digər işlər görülmüşdür. Rayonun şəhər və kəndlərində 10;6 və 0,4 kv-luq xətlərində ümumilikdə 360 ədəd yeni dayaq quraşdırılmış, 203 ədəd dayaq təmir edilmiş, 115 ədəd əyilmiş dayaq bərpa edilmiş, 15,5 kilomet uzunluğunda yeni naqil çəkilmiş, 19,5 kilometr məsafədə budama, 12,3 kilometr məsafədə sallanmış naqillərin dartılması işləri görülmüşdür. Bütün bunlardan əlavə, Balaqusar kəndində şəbəkənin yenidən qurulması ilə əlaqədar 5 ədəd yeni transformator, 10 kv-luq 30 ədəd yeni dayaq, 4,3 kilometr yeni naqil, 0,4 kv-luq 405 ədəd yeni dayaq quraşdırılmış, 12,5 kilometrlik kabel xətti çəkilmiş, 227 ədəd yeni elektron sayğac qoyulmuşdur. Avaran kəndində 2 ədəd yeni transformator, 10 kv-luq 23 ədəd dayaq quraşdırılmış, 7,7 kilometr açıq naqillər kabel xətləri ilə əvəz edilmişdir. Atlıxan kəndində güc artımı ilə əlaqədar 250 kv-lıq transformator 400 kv-lıq, Cibir, Qalacıq, Urva, Zindan Muruqqışlaq, Aşağı Ləyər kəndlərində, Kuzun kəndinin Aladaş yaşayış massivində sıradan çıxmış müxtəlif gücdə transformatorlar yeni transformatorla əvəz edilmişdir. Piral, Aşağı Ləyər və Kirig kəndlərində isə əlavə transformatorlar quraşdırılaraq istifadəyə verilmişdir. Həzrə və Ləcət kəndləri üçün əlavə transformatorlar gətirilmiş və hazırda quraşdırılma işləri davam edir.

Əhaliyə göstərilən rabitə xidmətlərinin yaxşılaşdırılması sahəsində də müəyyən tədbirlər davam etdirilmiş, Qayakənd kəndində 80, Xürel və Əcəxur kəndlərinin hər biri 96 nömrəlik yeni elektron ATS-lər quraşdırılıb istifadəyə verilmiş, şəhər və kəndlərdə istismara yararsız vəziyyətdə olan 10 kilometr uzunluğunda kabel xətləri yeniləri ilə əvəz olunmuşdur. 14 kilometr FO kabel xətləri çəkilmiş, 26 kilometrlik digər rabitə xətləri, 96 ədəd dirək təmir edilmiş, 189 ədəd yeni dirək quraşdırılmışdır. Aztelekom.net. provayderinin 930 portu genişzolaqlı internet xidmətinə qoşulmuşdur. Qusar şəhər, Hil, Balaqusar, Çiləgir, Əniq, Yuxarı Zeyxur, Kuzunqışlaq, İmamqulukənd, Qayakənd və Gündüzqala kənd EATS-də əlavə avadanlıq montaj olunaraq ümumilikdə 504 port artırılmış, Qusar şəhərində 109 ədəd, kəndlərdə 177 ədəd olmaqla cəmi 286 yeni telefon çəkilmişdir.

Qusar şəhərində yeni içməli su və kanalizasiya şəbəkələrinin qurulması sahəsində işlər başa çatdırılmış, ötən 9 ayda 334 metr kanalizasiya, 385 metr müxtəlif diametrli su xətti çəkilmiş, 32 ədəd yeni sayğac quraşdırılmış, 9 ədəd əlavə yeni magistral və 9 ədəd ev kanalizasiya birləşmə quyusu tikilmişdir. Eyni zamanda, hesabat dövründə yeni 4-cü su anbarının tikintisi başa çatdırılmış və şəbəkəyə qoşulmuşdur. Kənd bələdiyyələrinin vəsaiti və digər mənbələr hesabına kəndlərdə 12,6 kilometrlik, yeni su xətləri çəkilmiş, müxtəlif kəndlərdə ümumilikdə 2,7 kilometrlik su xətləri təmir edilmişdir.

“Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2018-ci il tarixli sərəncamına əsasən cari ildə Samur qəsəbəsinə və Aşağı Ləyər kəndinə magistral su xətlərinin çəkilməsi və daxili paylayıcı şəbəkəsinin qurulması nəzərdə tutulur. Artıq Aşağı Ləyər kəndinə 9,1 kilometrlik magistral və 6,2 kilometrlik kənddaxili su xəttinin çəkilməsi, su anbarların (rezurvarın) və 30 yerdə bulaqların tikintisi başa çatdırılmış, Samur qəsəbəsinə yeni magistral, içməli su xəttinin çəkilməsi işləri davam etdirilir.

Rayonda müəyyən qədər abadlıq, tikinti-təmir işləri görülmüşdür. Fəxrəddin Musayev və Sərdar Səfərov küçələrinin başlanğıcında Milli qəhrəmanların barelyefləri və məlumat lövhələri qoyulmuş, Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyinin tamam olduğu 26 iyun tarixində təntənəli açılışı edilmişdir. Cari ildə Suduroba və Yuxarı Tahircal kəndlərində məktəb binalarının tikintisi başa çatdırılaraq istifadəyə verilmiş, Ləcət, Yeni Həyat, Zindan Muruq qışlaq kəndlərində yeni məktəb binalarının və Qusar şəhərində Şövkət Orduxanov adına mərkəzi stadionun yenidən qurulması işlərinə başlanılmışdır.



Z.Əliyevə küçəsində 92, 124, 126, 128, 130, 132 saylı çoxmənzilli binaların fasadları, 92a saylı binanın pilləkən qəfəsləri təmir edilərək rənglənmişdir. Hazırda 119 və 119a saylı çoxmənzilli binaların pilləkən qəfəslərinin təmiri aparılır. Cari ilin 9 ayında Fizuli küçəsi 7 ünvanında yerləşən çoxmənzilli yaşayış binasının həyətinə, H.Əliyev prospekti, bəzi küçələrə, 6 ara küçəyə, tikinti materialları bazarına gedən yola ümumilikdə 21 min kvadratmetrə yaxın yeni asfalt örtük döşənmişdir. Qusarın girişindən başlayaraq Sərdar Səfərov, Elza İbrahimova küçələrində və H.Əliyev prospektində səkilərin tikilməsi üçün 11000 metrdən çox səki daşları qoyulmuş və səkilərə 8700 kvadartmetr asfalt örtük çəkilmişdir.

Kənd yollarının asfaltlaşdırılması da sürətlə davam etmişdir. 21,5 kilometrlik Köhnə Xudat-Həzrə, 38 kilometrlik Qusar-Əniğ-Ləzə və Qusar-Xudat yolunun qalan 12 kilometrlik hissəsində əsaslı təmir işləri gedir. Köhnə-Xudat Həzrə yolunda yol əsasının genişləndirilməsi, nəzərdə tutulan yerlərdə səkilərin tikintisi, su ötürücü boruların qoyulması və 1-ci qat asfalt örtüyünün çəkilməsi başa çatdırılmışdır.

Eyni zamanda Qusar-Xudat yolunun əsaslı təmirinə başlanılmış və asfalt örtüyün çəkilməsi davam edir. Qusar-Əniq-Ləzə yolunda da köhnə asfalt qatın sökülməsi və yeni asfalt qatın döşənməsi işləri davam etdirilir. Bundan əlavə rayonun asfalt örtüklü digər yollarında 1214 kvadratmetr, çınqıl örtüklü yollarda 7480 kvadratmetr cari təmir işləri görülmüşdür. Kənd bələdiyyələrinin vəsaiti və digər mənbələr hesabına kənd yollarında 33580 kvadratmetr cari təmir, 57800 kvadratmetr hamarlama işləri aparılmışdır. Azərbaycan-Rusiya Dövlət sərhədində Samur çayı üzərində yeni 325,3 metrlik yeni körpünün tikintisinə başlanılmışdır. 6 dayaqdan ibarət olacaq körpünün 1-ci dayağının tikintisi artıq başa çatdırılmış, hazırda 2-ci dayağın tikintisi davam etdirilir.

Cari ilin sonuna kimi yuxarıda qeyd olunan layihələrin davam etdirilməsi və növbəti il üçün rayonun “İnkişaf Planı”nın hazırlanması nəzərdə tutulur.

**Ziyafəddin BAYRAMOV,**
**“Respublika”.**





